**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

əlyazması hüququnda

**AYTƏKİN NAZİM QIZI İBRAHİMOVA**

# AZƏRBAYCAN DÖVLƏTİNİN SOSİAL FUNKSİYASININ KONSTİTUSİYA HÜQUQİ ASPEKTLƏRİ

**İxtisas: 5607.01-"Konstitusiya hüququ; bələdiyyə hüququ"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI 2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Konstitusiya hüququ" kafedrasında yerinə yetirilmiş, müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor İ.O.QULİYEV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor A.C.QULİYEV** |
| | **hüquq üzrə fəlsəfə doktoru Z.N.ASLANOV** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** |

Dissertasiya işinin müdafiəsi « 30 » « 10 » 2015-ci il tarixdə saat « » Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat « » «__________» 2015-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya işinin aktuallığı.** Dövlətin sosial funksiyası azad, hüquqi dövlət istiqamətində ümumbirgə yaşayış qaydalarını və layiqli həyat səviyyəsini ifadə etdiyindən, insan və vətəndaşın həyat şəraitinin, rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən əsas dövlət fəaliyyəti olduğundan digər funksiyalar içərisində özünəməxsus yerlərdən birini tutmuşdur. Lakin onu da unutmamaq lazımdır ki, dövlətin sosial funksiyası onun iqtisadi inkişafı olmadan həyata keçirilə bilməz. Məhz buna görə də sosial funksiya iqtisadi funksiyadan asılı olaraq reallaşır. Sosial funksiyanın iqtisadi funksiyadan asılılığı istər beynəlxalq hüquqi müstəvidə, istərsə də milli hüquqi müstəvidə bu funksiyaların birgə tədqiq edilməsinə səbəb olmuşdur. Çox vaxt sosial funksiyanın hüdudları hüquqi funksiya ilə məhdudlaşdırılır, lakin heç də hər zaman hüquqi funksiyanın imkanları dövlətin sosial funksiyasının tələblərinin həyata keçirilməsində yetərli olmur.

Ümumiyyətlə "funksiya" anlayışı xüsusi termin hesab edilmir. Ümumi qəbul edilmiş mənada funksiya müxtəlif fəaliyyət istiqaməti kimi qəbul edilir. Dövlətin funksiyası anlayışı haqqında hüquq ədəbiyyatında ziddiyyətli fikirlər mövcuddur. Baxmayaraq ki, bu anlayış ən çox hüquqi şəkilə uyğunlaşdırılmış və dövlətin insanlara təsiri, dövlətin fəaliyyətinin həyata keçirilmə formaları və onların qarşılıqlı münasibətləri kimi ifadə olunmuşdur, lakin hələ də alimlər hüquqi aspektən dövlətin funksiya anlayışı ilə bağlı yekdil bir fikrə gələ bilməmişlər. Funksiya dövlətin öz qarşısına qoyduğu məqsədlərə çatması, həyata keçirdiyi fəaliyyəti əks etdirmək üçün mövcuddur. Funksiya obyektiv və həmişə dəyişən tələblərlə bağlı olub, milli dövlətçiliyin inkişaf istiqamətlərini xarakterizə edir, dövlətin quruluşundan, əsas məqsədlərindən asılı olaraq formalaşır. Dövlətin sosial funksiyasında onun icra etməli olduğu sosial əsaslı mövqeyi ehtiva olunur. Bəzən belə bir fikir də ifadə olunur ki, dövlətin funksiyası ölkənin daxilində və xaricində onun sosial mahiyyətini müəyyənləşdirir. Lakin bu fikir ilə də razılaşmaq olmaz. Belə ki, dövlətin funksiyasının sosial təyinatı onun cəmiyyətə münasibətdə daşıdığı vəzifə ilə əlaqədardır. Hansı ki, dövlət bu vəzifəni funksiyalarından biri olan sosial funksiya vasitəsilə həyata keçirir.

Dövlətin sosial funksiyası digər funksiyalara nisbətən daha gənc olsa da onun cəmiyyətdə yüksək mövqe tutması əvvəllər malik olmadığı dəyərlər vasitəsilə özünü zənginləşdirməsi ilə, hüquq və azadlıqlara təminat verməsi və getdikcə özünü daha da təkmilləşdirməsi ilə əlaqədardır. *Dövlətin sosial funksiyası dedikdə elə dövlət fəaliyyəti başa düşülür ki,*

*əsas təyinatı ümumi rifahı təmin etmək və hər kəsə bu rifahdan istifadədə bərabər imkanlar yaratmaqdır.* Dövlət əslində layiqli həyat səviyyəsi standartlarını müəyyənləşdirməklə cəmiyyətin sosial-iqtisadi hüquqlarının həcmini və strukturunu, eyni zamanda ayrı-ayrı qrupların sosial-iqtisadi vəziyyətini də müəyyənləşdirmiş olur. Məhz mövzunun aktuallığı da onunla bağlıdır ki, burada hər bir insanın layiqli həyat səviyyəsi üçün mövcud imkanlar və minimum standartlar tədqiq olunmuşdur.

Dövlətin əsas inkişaf göstəricisi onun sosial funksiyasından asılıdır. Sosial funskiya digər dövlət funskiyalarına nisbətən daim artan istiqamətdə inkişaf edir və üstünlük təşkil edən funksiyaya çevrilir. Onu da qeyd etmək olar ki, dövlətlərdə sosial funksiyanın xüsusi növlərinin yaranması nəinki cəmiyyətin sosial ehtiyaclarının təmin olunması üçün yeni vasitə oldu, eyni zamanda müvafiq ehtiyacların kəskin və sürətli şəkildə azalmasına da səbəb oldu.

Vilson Vidronun fikrincə sosial funksiya dövlətin əsas funksiyalarından biridir. Vilson sosial funksiyanı belə izah etmişdir: “İnsanlar bir-birləri ilə münasibətlərində əsas qanunlardan istifadə etməyə və bu qanunlara əsaslanmağa çalışsalar da onlar arasında yarana biləcək, ehtimal olunan ziddiyyətlərin qarşısının alınması üçün müəyyən bir qayda tətbiq olunmalıdır. Vilson idealistlərin “hər kəs düzgün hərəkət edərsə, dövlətə ehtiyac olmaz” fikrini məqsədə uyğun hesab etmir. O hesab edir ki, cəmiyyətdə hər hansı bir qayda məcburiyyət kimi tətbiq oluna bilməz. Bunun üçün də dövlət tənzimedici fəaliyyəti ilə insanların sosial dünyada öz yerlərini müəyyən etmələrinə, ümumi təhlükəsizliyin təminatçısı kimi qalmalarına yardım edir. Bu zaman dövlətin tənzimedici fəaliyyəti qismində onun sosial funksiyası çıxış edir[1]

Əvvəllər ictimai problemlər insanların özləri tərəfindən həll olunurdusa, indi isə dövlət və şəxs birgə bu problemlərin öhdəsindən gəlməyə çalışırlar. Xüsusilə dövlət cəmiyyət üçün vacib olan bu sosial məsələləri həll etməkdə istər konstitusion müstəvidə, istərsə də qanunvericilik müstəvisində olsun öz üzərinə vəzifə götürür. Müasir dövlətlərin hər birinin konstitusiyalarında sosial funksiya öz əksini tapmışdır. Sosial funksiyanın konstutision səviyyədə əks olunmasının ən birinci səbəbi isə dövlətlərin bu funksiyaya verdiyi əhəmiyyətlə əlaqədardır.

AR müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, sosial sahədə də bir çox köklü islahatlar həyata keçirməyə başladı: sosial funksiya dövlətimizin fəaliyyətinin əsasını təşkil etdi və sosial

[1] Woodrow W., The State: Elements of Historical and Practical Politics. Forgotten Books, 2012., 568 p

qanunvericilik təkmilləşdirildi. Sosial funksiyanın Konstitusiyada təsbiti isə bir daha onu sübut etdi ki, dövlətin əsasını təşkil edən əsas amillərdən biri də məhz sosial dəyərlərdir. Son illərdə ölkədə aparılan sosial islahatlar vətəndaşların sosial şəraitini yüksəltməklə yanaşı, vətəndaşlar üçün sosial təminat sistemini də formalaşdırmış, sosial sahədə beynəlxalq və regional əməkdaşlıq isə günü-gündən Respublikada sosial sahənin inkişafına təkan vermiş, bu sahədə çoxsaylı normativ hüquqi aktların və dövlət proqramlarının qəbul olunmasına, ölkədə sosial siyasətin formalaşmasına səbəb olmuşdur. [2] AR-sı cəmiyyətdə sağlamlığın qorunması, ekoloji, sanitariya epidemioloji salamatlığın təmin olunması üçün proqramlar qəbul edir. Könüllü sosial sığortanın, sosial təminatın və xeyriyyəçilik fəaliyyətinin əlavə formalarının yaradılması üçün həvəsləndirmə tədbirləri həyata keçirir. Dövlət hər bir vətəndaşının həyat səviyyəsinin qaldırılması üçün müxtəlif vasitələrdən istifadə edir. Sosial funksiyanın həyata keçirilməsində əsas yeri vətəndaşın təhsil, elm, mədəniyyət və sağlamlığın mühafizəsi sahəsində dövlət siyasəti tutur ki, bu sahələrdə də sosial funksiya dövlətin dəstəyi ilə (maliyyə, maddi, proqram təminatı və s.) həyata keçirilir.

Təbii ki, sosial funksiyanın bütün aspektlərini, konstitusiyada tapmaq mümkün deyildir. Lakin ayrı-ayrı normativ hüquqi aktlar ilə tənzimlənən sosial funksiyalar bütövlükdə konstitusion prinsiplərə əsaslanmalıdır. [3]

Sosial funksiyanı analiz etdikcə belə bir qənaətə gəlirik ki, istənilən müasir dövlət sosial funksiyaya malikdir. Sosial funksiya dövlətin hər bir vətəndaşına müxətlif xarakterli sosial xidmətlər göstərməklə onun bütün fəaliyyətini əhatə edir. Bura vətəndaşın sağlamlığının qeydinə qalmağı, minimum əmək haqqını, pensiyanı müəyyənləşdirməyi aid etmək olar ki, bununla da dövlət hər bir vətəndaşına minimum yaşayış səviyyəsindən aşağı olmayan təminat verir. Nəticə olaraq onu demək lazımdır ki, dövlətin sosial funksiyası insanın müstəqil inkişafı və layiqli həyat səviyyəsini təmin edəcək şərtlər müəyyənləşdirir. Müasir bir dövlət kimi Azərbaycan da vətəndaşlarının layiqli həyat səviyyəsinin təmini üçün ilk növbədə dövlətin sosial funksiyasını təkmilləşdirməlidir. Məhz dissertasiya işində əsas qarşıya qoyulan məqsəd də, dövlətin sosial sahədəki fəaliyyətinin elmi cəhətdən araşdırılması və sosial funksiyanın həyata keçirilməsi üçün

---

[2] Əsgərov Z.A., Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011.760 s
[3] Sadurski Wojciech., “Constitutional Courts in the Process of Articulating Constitutional Rights in the Post-Communist States of Central and Eastern Europe” I T., European University Institute,. 2002, 42 p

müəyyən təminatların öyrənilməsidir. Dövlətimizin sosial sahədə fəaliyyəti bu sahədə qəbul edilən ayrı-ayrı normativ hüquqi aktlarla tənzimlənir ki, qəbul edilən normativ hüquqi aktların və sosial sahədə qəbul edilən dövlət proqramlarının həyata keçirilməsi mexanizmini tədqiq etmək də olduqca aktual və əhəmiyyətlidir.

**Dissertasiya işinin obyektini** dövlətin sosial funksiyası və onun kompleks tədqiqi təşkil edir.

**Dissertasiya işinin predmetini** dövlətin sosial funksiyası, sosial funksiyanın hüquqi əsasları, sosial hüquqların müəyyən edilməsi və təminatları ilə bağlı məsələlər və bu məsələlərin tədqiq olunmasında istifadə olunan qanuvericilik aktları, qəbul edilən dövlət proqramları və məhkəmə təcrübələri təşkil edir.

**Dissertasiya işinin məqsədini** AR sosial funksiyasının kompleks təhlilini aparmaq, sosial funksiyanın konstitusion hüquqi aspektlərini təhlil etmək, sosial funksiyanın özünəməxsus cəhətlərini və mahiyyətini araşdırmaq, Azərbaycanın timsalında dövlətin bütövlükdə funksiyalarının təhlilini aparmaq və dövlətin funksiyaları içərisində sosial funksiyanın yeri və əhəmiyyətini əsaslandırmaqdan ibarətdir.

Tədqiqat işində qarşıya qoyulan məqsədlərə nail olmaq üçün aşağıda qeyd olunan, həyata keçirilməsi vacib **vəzifələr** müəyyənləşdirilmişdir:

- Azərbaycan dövlətinin funksiyaları sistemində sosial funksiyanın yerini müəyyən etmək
- Sosial funksiyanın sosial hüquqların təmin olunmasında əhəmiyyətini müəyyənləşdirmək
- Sosial dövləti sosial hüquqların təminat sistemi kimi nəzərdən keçirmək. Müxtəlif sosial dövlətlərin xarakterik xüsusiyyətlərini nəzərdən keçirərək, onların müqayisəli təhlilini aparmaq.
- Azərbaycanın sosial dövlətə gedən yolda lazımı təcrübələrdən bəhrələnməsi, sosial dövlət olmaq üçün normativ bazanın yaradılması və mövcud normalardan səmərəli istifadə mexanizmlərini tədqiq etmək
- Dövlətin sosial siyasətini müəyyən məqsəd və hədəflərə çatmaq üçün cəmiyyətə tətbiq olunan və cəmiyyətlə bağlı olaraq qəbul edilən qərarlar və həyata keçirilən fəaliyyətlər cəmi kimi nəzərdən keçirmək.
- İnsan hüquqları konteksində sosial hüquqları konstitusiya prioriteti kimi nəzərdən keçirmək.
- Layiqli həyat səviyyəsi hüququnun konstitusion hüquqi təminatlarını və dövlətin sosial funksiyası ilə qarşılıqlı əlaqəsini müəyyənləşdirmək.

- AR sosial funksiyasının əmək qanunvericiliyində istiqamətlərini müəyyənləşdirmək

- Sosial təminat qanunvericiliyini dövlətin sosial funksiyasının tərkib hissəsi kimi nəzərdən keçirmək.

- Sosial funksiyanın təmin olunması üzrə AR-in universal beynəlxalq öhdəliklərinin həyata keçirilməsi mexanizmini müəyyənləşdirmək və bu öhdəliklərin həyata keçirilməsində yeni üsul-vasitələr təklif etmək

- Avropa Şurası çərçivəsində qəbul edilən sosial normaların tədqiq edilməsi və onların AR qanunvericiliyinə implementasiyası məsələlərini müəyyənləşdirmək

- Avropa İttifaqı ilə sosial sahədə əməkdaşlıq, gələcəkdə bu əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində qarşıya qoyulan vəzifələr; Avropa İttifaqı sosial normalarının AR qanunvericiliyinə implementasiyası məsələlərini tədqiq etmək.

- MDB dövlətlərinin sosial sahədə əməkdaşlığının xüsusiyyətlərini müəyyənləşdirmək

**Dissertasiya işinin elmi yeniliyi.** Bir sıra xarici müəlliflər öz tədqiqat əsərlərində sosial funksiyanın mühüm istiqamətlərini araşdırmış, sosial funksiyanın konstitusiya hüquqi əsaslarını tədqiq etmişlər. Lakin Azərbaycanda sosial funksiyanın konstitusiya hüquqi aspektləri sahəsində elmi-tədqiqat aparılmamış, bu günədək dövlətin sosial funksiyasının konstitusiya hüquqi aspektləri mövzusunda kompleks tədqiqat əsəri yazılmamışdır. Bu mövzuda monoqrafik səviyyədə araşdırmaya ilk dəfədir ki, cəhd edilir.

Məhz dissertasiya işinin elmi yeniliyi də ondadır ki, dissertasiya işində ilk dəfə sosial hüquqlar sosial funksiyanın təminat sistemi kimi, sosial siyasət dövlətin sosial funksiyasının həyata keçirilmə mexanizmi kimi, sosial dövlət sosial hüquqların təminat sistemi kimi, insan hüquqları kontekstində sosial hüquqların konstitusiya prioriteti və layiqli həyat səviyyəsi məsələsi, layiqli həyat səviyyəsi hüququnun konstitusion hüquqi təminatları, əmək qanunvericiliyi və sosial təminat qanunvericiliyi sosial funksiyanın tərkib hissəsi kimi nəzərdən keçirilmiş, Azərbaycanın sosial sahədə beynəlxalq və regional əməkdaşlığı tədqiq edilmiş, sosial sahədə beynəlxalq və regional normaların AR qanunvericiliyinə implementasiya olunması yolları araşdırılmışdır.

Dissertasiya işinin elmi yeniliyini özündə ehtiva edən aşağıdakı **elmi müddəalar** müdafiəyə təqdim edilir:

1. Dövlət öz sosial funksiyasını təkmilləşdirilmiş, əsas hədəfləri əvvəlcədən müəyyənləşdirilmiş sosial siyasət vasitəsilə həyata keçirir.

Dövlət tərəfindən həyata keçirilən sosial siyasətin effektiv təsiri üçün həyata keçirilməsi vacib olan sosial siyasətin siyahısı konkretləşdirilməli və onların həyata keçirilmə mexanizmləri müəyyənləşdirilməlidir. Ehtimal olunan sosial problemlərin baş verməməsi üçün profilaktik tədbirlərin həyata keçirilməsini tələb edən mühafizəedici sosial siyasət praktikada tətbiq olunmalıdır.

2. AR Konstitusiyasının 12.1-ci maddəsinə əsasən dövlətin ali məqsədlərindən biri də AR vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin olunmasıdır. Dövlətin ən vacib sosial funksiyası vətəndaşların layiqli həyat səviyyəsi və onun inkişafının təmin edilməsidir. Bu baxımdan layiqli həyat səviyyəsi hüququ olduqca aktual bir məsələdir hansı ki, özündə minimum qida, geyim, mənzil, su və sağlam ətraf mühit hüququ kimi əsas elementləri əks etdirir. Layiqli həyat səviyyəsi hüququ kompleks hüquqdur. O kompleks xarakterinə görə sosial hüquqlardan daha geniş münasibətləri tənzim edir və özündə bütün sosial hüquqların minimum standartlarını nəzərdə tutur. Layiqli həyat səviyyəsi hüququnun başlıca prinsiplərinin konstitusion səviyyədə təsbit olunması dövlətin öz vətəndaşlarına və bütün insanlara verdiyi əsas dəyər hesab edilir. Layiqli həyat səviyyəsi anlayışının elmi baxımdan araşdırılması, layiqli həyat səviyyəsini formalaşdıran minimum sosial standartların müəyyənləşdirilməsi və layiqli həyat səviyyəsi hüququnun konstitusion müstəvidə təsbit olunması əsas prioritet məsələlərdən biridir.

3. Dövlətin sosial funksiyası ilk növbədə layiqli həyat səviyyəsinin təmin olunmasını nəzərdə tutur. Layiqli həyat səviyyəsinin təmin olunması vasitələrindən biri də hər bir insanın özünün və ailəsinin sığınacaq və mənzil hüququnun təmin olunmasıdır. Mənzil hüququ layiqli həyat səviyyəsinin təmin olunması vasitəsi kimi beynəlxalq aktlarda və bir çox dövlətlərin konstitusiyalarında öz əksini tapmışdır. BMT-nin əsas prinsiplərində də birbaşa ifadə olunmuşdur ki, hər bir dövlət öz ərazi hüdudunda olan şəxsləri minimum sığınacaq və evlə təmin etməlidir. Konstitusiyamızın 43-cü maddəsi “Mənzil hüququ” adlansa da təəssüflər olsun ki, iki bənddən ibarət olan bu maddədə hər kəsin mənzil hüququnun olması ifadəsi öz əksini tapmamışdır. Layiqli həyat səviyyəsinin təmin olunması və mənzil hüququnun realizə edilə bilməsi üçün Konstitusiyanın 43-cü maddəsinə əlavələr edilməsi məqsədəmüvafiq olardı.

4. Sosial yönümlü vergi siyasəti dövlətin öz sosial funksiyasını daha yaxşı həyata keçirməklə gəlir bərabərsizliyini aradan qaldıracağı kimi əldə edilən vergi gəlirləri hesabına aşağı gəlirli cəmiyyət üzvlərinin sosial xidmət sahəsindən istifadə etməsinə, vətəndaşın rifahının yüksəlməsinə və onların layiqli həyat səviyyəsinin təmin

olunmasına imkan yaradacaqdır. Ümumi rifahın təmin olunmasının başlıca şərti də məhz sosial yönümlü vergi siyasətinin praktikada tətbiq olunmasıdır. Əksər sosial dövlətlər konstitusion səviyyədə verginin ədalətli bölgü siyasətini tənzimləmişlər. Sosial yönümlü vergi siyasətinin praktikada tətbiqi üçün birinci növbədə konstitusion səviyyədə ədalətli vergi siyasəti təsbit edilməli, gəlirin insanlar arasında ədalətli bölgüsünü təmin etmək üçün isə AR VM-si təkmilləşdirilməlidir.

5. Dövlətin sosial funksiyasının başlıca məqsədi sosial şəraitin yaxşılaşdırılmasıdır. Sosial şəraitin yaxşılaşdırılmasının əsas faktorlarından biri isə minimum əmək haqqıdır. Minimum əmək haqqı hər bir fərdin özünün və ailəsinin minimum tələbatlarının ödənilməsi vasitəsi olduğundan layiqli həyat səviyyəsini təmin edən əsas vasitələrdən biri hesab edilir. Ailə sosial həyatın ən vacib elementi və şəxsin əvəzsiz bir hissəsi olduğu üçün minimum əmək haqqının müəyyən olunmasında işçinin və ailəsinin ehtiyacları bir bütün şəklində diqqətə alınmalı, minimum əmək haqqı anlayışı təkmilləşdirilməli, minimum əmək haqqı miqdarının müəyyənləşdirilməsi zamanı ölkədəki regional inkişaf və həyat standartları nəzərə alınmalıdır.

6. Müasir dövrdə dünyada yaşayış minimumu, eləcədə minimum istehlak səbətinin dəyəri ölkədə əhalinin həyat səviyyəsini ölçmək, sosial vəziyyətini qiymətləndirmək üçün istifadə olunan ən vacib ölçü meyarıdır. Qeyd edək ki, yaşayış minimumunun dəyəri dedikdə insanın fizioloji tələbatını ödəmək üçün lazım olan ərzaq, qeyri-ərzaq və xidmətlər dəyərinin toplusu nəzərdə tutulur. Bu gün dünyanın inkişaf etmiş ölkələrində yaşayış minimumu istehlak səviyyəsindən yuxarıda dayanır və istehlak səbətinin tərkibinə çoxlu sayda elementlər daxildir. Bu baxımdan istehlak səbətinin tərkibinə yeni elementlər daxil edilməli, istehlak səbətindən istifadə edən əsas sosial demoqrafik qruplar dəqiqləşdirilməli, inflyasiya və qiymətlər prosesini nəzərə alaraq istehlak səbəbətinin tərkibinə baxılması müddəti isə yaşayış minimumu məbləğinə baxılması müddəti ilə uyğunlaşdırılmalıdır.

7. Konstitusion müstəvidə tənzimlənən sosial təminat münasibətlərinin daha da təkmilləşdirilməsi, sosial müdafiə və sosial hüquqların təminatı sahəsində dövlətin funksiyalarının genişləndirilməsi, xüsusilə də konstitusiyanın əsas insan və vətəndaş hüquq və azadlıqları fəslində sosial, iqtisadi və mədəni hüquqların yarımbaşlıqlar şəklində fərqləndirilməsi əsas prioritet məsələlərdən biridir.

8. Dövlətin əsas sosial funksiyalarından biri də vətəndaşlarını bu gün və gələcəkdə baş verə biləcək müxtəlif sosial risqlərdən müdafiə etmək, daha doğrusu onları sosial təminat altına almaqdan ibarətdir. Sosial təminatın başlıca məqsədi hər bir insanı möhtac olmadan və azadlığından fədakarlıq etmədən layiqli həyat səviyyəsi ilə təmin etməkdir. Sosial təminata ehtiyac duyan əsas təbəqələrdən birini yaşlılar təşkil edir ki, onları yaşlandıqları vaxt rahat yaşaya bilməmək risqi daha çox narahat edir. Yaşlandıqda daha rahat yaşaya bilmək üçün əmək fəaliyyətləri boyunca nizamlı olaraq qənaət etməyi təmin edən, sosial təminat sistemini tamamlayan, gələcəyə sərmayə

sistemi olan və dünya praktikasında inkişaf etmiş dövlətlər tərəfindən tətbiq olunan fərdi pensiya sistemi araşdırılmalı, müqayisəli təhlillər aparmaqla ən yaxşı təcrübə öyrənilməli və praktikada tətbiqi üçün normativ hüquqi bazanın yaradılması haqqında təkliflər irəli sürülməlidir.

9. Dövlətin sosial funksiyası dövlətin insan və vətəndaşa verdiyi sosial hüquqlarının əsas təminat vasitəsidir. Sosial hüquqların isə elmi ədəbiyyatlarda daha çox kazuallığı ön plana çəkilir, sosial hüquqların məzmununa tam olaraq hansı hüquqların daxil olduğu və dolayısı ilə bu anlayışın necə müəyyənləşməsi ilə bağlı yekdil bir fikir isə yoxdur. Belə ki, çox vaxt sosial hüquqlar "sosial və iqtisadi hüquqlar", "ya da "iqtisadi, sosial və mədəni hüquqlar" ilə eyni məna, ya da bu hüquqları əhatə edəcək şəkildə istifadə olunur. Bu baxımdan da sosial hüquqlara anlayış vermək, bu hüquqların məzmununu müəyyənləşdirmək, insan hüquqları içərisində yerini təsbit etmək və bütün sosial hüquqları dövlətin müdafiə mexanizminə daxil etmək əsas prioritet məsələlərdən biridir.

10. Dövlətin sosial funksiyası ilə təmin olunan sosial hüquqların konstitusion hüquqi müstəvidə təsbit olunması mübahisəlidir. Belə ki, bir tərəfdən sosial hüquqları yalnızca konstitusiyada təsbit etməklə kifayətlənənlər zəmanət verirlər ki, bu sosial hüquqların realizəsi üçün onun ayrı-ayrı normalarda təsbit olunmasına ehtiyac yoxdur. Digər tərəfdən isə sosial hüquqların, minimum həyat standartlarının, layiqli həyat səviyyəsi hüququnun konstitusiyada təsbit olunmasına baxmayaraq, gələcəkdə baş verəcək iqtisadi və ictimai dəyişikliklərlə əlaqədar olaraq bu hüquqlar tənzim oluna bilmirlər. Lakin sosial hüquqların konstitusiyada təsbit olunması bu hüquqlara daha ciddi yanaşmağa bir tələb müəyyənləşdirəcəkdir.

11. AR-də layiqli həyat səviyyəsinin qanunvericilik təminatı Konstitusiyanın 12-ci maddəsi və 148-ci maddəsinə müvafiq olaraq beynəlxalq standartların primatlığının qəbul edilməsi istiqamətində həyata keçirilməlidir. Bu isə özlüyündə qanunvericiliyin unifikasiyasını tələb edir ki, bu unifikasiya da dolayı yolla deyil, birbaşa yolla həyata keçirilməlidir. Belə ki, sosial yönümlü beynəlxalq normalar milli qanunvericiliyə birbaşa unifikasiya olunarlarsa onların praktikada tətbiqi də daha asan olar.

12. Ailə və uşaqların sosial müdafiəsi konstitusiyada öz təsbitini tapan dövlətin əsas sosial funksiyalarından biridir. Ailədə sosial-iqtisadi şəraitin yaxşılaşdırılması, ailə əsaslı sosial xidmətlərin göstərilməsi, uşaqların ailə mühitində sosial müdafiəsinin tənzimlənməsi üçün konstitusion müstəvidə təsbit olunan sosial funksiyanın prosessual təminatının olması olduqca vacibdir. Bu baxımdan tam rahatlıqla demək

olar ki, konstitusion müstəvidə tənzimlənən sosial müddəaların xüsusi normativ hüquqi aktlar vasitəsilə realizə olunması dövlətin sosial funksiyasının həyata keçirilməsinə öz müsbət töhvəsini verəcəkdir.

**Tədqiqat işinin nəzəri əsasını** AR-in, Türkiyə Respublikasının, Rusiya Federasiyasının, ABŞ-ın, İngiltərənin, Almaniyanın və bir sıra digər dövlətlərin tanınmış hüquqşünas alimlərinin dövlətin sosial sferada fəaliyyəti və onun hüquqi tənzimlənməsinə dair elmi əsərləri, habelə əsaslandırılmış nəzəri təhlilləri təşkil edir. *Yerli müəlliflərdən*: Ə.İ.Əliyev, İ.O.Quliyev, Z.A.Əsgərov, Ş.İ.Əliyev, M.N.Əliyev, N.T.Nağıyev; əcnəbi müəlliflərdən, ilk növbədə türk alimlərindən: Bülent Kara, Sefa Uyan, Pınar Dursun, Ali Kemal Sayın, Kutal Metin, Şükrü Kızılot, Ali Nazım Sözer, Nur Serter, Meryem Koray, Nihat Bulut, Bülent Algan, Can Aktan, Zafer Gören, Ayferi Göze, Bahadır Eser, Necdet Ar, Alp Mustafa, Gülten Kazgan, Ramazan Gökbunar, Alparslan Uğur, Harun Özdemir, Zafer Çağlayan, Cahit Talas; rus müəlliflərindən: V.A.İvanovka, L.V.Jilskaya, L.İ.Kask, N.N.Qriçenko, B.E.Viktorovna, İ.A.Qriqoryeva, N.V. Çernoqolovkin, S.S.Alekseyev, S.S.Oleynikova, A.P.Aleksandrova, S.E. Korobov, O.V.Radianova, L.N.Koçetkova, R.V.Kosov, İ.İ.Nikoloyeviç, B.Kistyakovski; Qərbi Avropa və Amerikan alimlərindən*:* Katharine G.Young, Danie Brand, Gerald L.Neuman, Mark Tushnet, Paul Piersen, Jahn Myles, Bent Greve, Amy Gutman, Michael Hill, C.Alcock, A. Briggs, David P.Currio, J. Nickes, W.Wondow, Tim Bendixen, Catrin Heite, Peter Hensen, Gregor Hensen, Helen Hershkoff, Benjamin Benz, Sesilie Shildberg, Gerhard Böker, Julia Schafer, Jürgen Boeckh, Gerhard Sandra, Martin Müller, F.X. Kaufmann, A. Oswald, D.Bilchitz, H. Seifert, O. Struck, T. Vahlpahl, D. Deacon, M.Krennerich və başqalarının əsərlərindən geniş istifadə edilmişdir.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya işinin yazılması prosesində həm ümumielmi (formal məntiqi, sosioloji, sistemli-struktur təhlil, tarixi yanaşma, elmi və praktik materialların ümumiləşdirilməsi), həm də xüsusi elmi metodlardan (müqayisəli hüquqşünaslıq, məntiqilik, statistik təhlil, monitorinq və s.) istifadə edilmişdir. Sosial normaları özündə ehtiva edən bır sıra dövlətlərin konstitusiyalarının müqayisəli təhlili aparılmış, inkişaf etmiş dövlətlərin konstitusiyalarında əks olunan nümunəvi sosial normaların yerli qanunvericiliyə və praktikaya tətbiqi ilə bağlı təkliflər irəli sürülmüşdür. Bundan başqa müxtəlif dövrlərdə ayrı-ayrı dövlətlərin hüquqşünaslarının dövlətin sosial funksiyaları ilə bağlı fikirləri və gəldikləri nəticələr araşdırılmış, müxtəlif məhkəmə işləri tədqiq

olunmuş, məhkəmələrin təcrübi materiallarının ümumiləşdirilməsində isə sosial və məhkəmə statistik tədqiqat üsullarından da istifadə edilmişdir.

**Tədqiqatın normativ bazasını** AR-in Konstitusiyası, qüvvədə olan sosial yönümlü normativ hüquqi aktlar, beynəlxalq hüquqi aktlar və ayrı-ayrı dövlətlərin təcrübələri təşkil edir.

**Tədqiqatın emprik bazasını** isə məhkəmə təcrübələri təşkil edir.

**Tədqiqatın nəticələrinin nəzəri və təcrübi əhəmiyyəti**. Onu qeyd etmək lazımdır ki, dövlətin sosial funksiyasının konstitusion hüquqi aspektlərinin tədqiq edilməsi nəticəsində əldə edilmiş nəticələrin və irəli sürülmüş təkliflərin həm elmi-nəzəri, həm də sosial qanunvericiliyin təkmilləşdirilməsi baxımından praktiki əhəmiyyəti böyükdür. İşin nəzəri nəticələrindən, praktik təkliflərindən hüquqyaratma fəaliyyətində, habelə ali məktəblərdə tədris prosesində, xüsusilə Konstitusiya hüququ, İnsan hüquqları, Sosial təminat hüququ üzrə dərslik, dərs vəsaitləri, o cümlədən tədris-metodik proqramların işlənib hazırlanmasında və sosial problemlərə dair elmi tədqiqatların aparılmasında və qanunvericiliyin təkmilləşdirilməsində istifadə oluna bilər. Dissertasiyada bu məsələlərə müqayisəli, sistemli, kompleks və təcrübi materiallar əsasında geniş yer verilmişdir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqat işi Bakı Dövlət Univeristetinin "Konstitusiya hüququ" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın əsas müddəaları, nəticələr və praktik tövsiyyələr AR-nın və Ukraynanın nüfuzlu elmi jurnallarında və elmi məqalə toplularında açıqlanmış, müəllifin dərc edilmiş işlərində, elmi praktik konsfranslarındakı məruzələrinin tezislərində və çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu** onun məqsədləri, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya işi struktur baxımından giriş, üç fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə çıxarılan əsas yeni elmi müddəalar və onun praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və dissertasiyanın strukturu haqqında məlumat verilir.

Birinci fəsil **"Azərbaycan dövlətinin sosial funksiyasının ümumi xarakteristikası"** adlanmaqla üç paraqrafı özündə birləşdirir.

**“Dövlətin funksiyaları sistemində sosial funksiyanın yeri və sosial hüquqların təmin olunmasında onun əhəmiyyəti”** adlanan birinci paraqrafda qeyd edilir ki, dövlətin funksiyası ölkənin daxilində və xaricində onun sosial mahiyyətini müəyyənləşdirir və bu funksiyaların sosial təyinatı onun cəmiyyətə münasibətdə daşıdığı vəzifəsi ilə əlaqədardır. Deməli funksiyalar elə dövlət fəaliyyətini əks etdirməyi nəzərdə tutur ki, həmin fəaliyyətlərin həyata keçirilməsi dövlətin qarşısında vəzifə kimi müəyyənləşdirilmişdir. Dövlətin funksiyasının məzmunu dəyişməz olaraq qalmır- o da cəmiyyətdə baş verən dəyişikliklərlə birgə dəyişir. Funksiya dövlət fəaliyyətinin obyektiv və zəruri istiqamətlərini əks etdirir, hansı ki, bu fəaliyyət istiqamətləri olmadan dövlət normal inkişaf edə bilməz və mövcud ola bilməz. Lakin funksiya təkcə dövlətin fəaliyyət istiqamətini əks etdirmir, həmçinin dövlət orqanları və digər ictimai birliklərin bir-biri ilə əlaqələndirilməsi və ümumi müqayisəsini əks etdirir. Buna görə də dövlətin funksiyası mövcud siyasi-hüquqi sistemin qanunauyğun fəaliyyətinə xidmət edir, dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətləri, dövlətin bütün tarixi dövrü ərzində üzərində öhdəlik kimi dayanan ən aktual məqsəd və vəzifələrini əks etdirir.

Dövlətin daxili funksiyalarından biri də sosial funksiyadır. *Dövlətin sosial funksiyası dedikdə- cəmiyyətin hər bir üzvünün onların maddi vəziyyətindən, yaşından, cinsindən, sağlamlıq imkanlarından asılı olmayaraq normal yaşayış səviyyəsinin təmin olunmasına yönələn dövlət fəaliyyəti başa düşülür.* Məsələn: minimum əmək haqqının, pensiyanın, təqaüdün, xəstələrə, əlillərə, kasıblara, tələbələrə, uşaqlara, analara, işsizlərə müavinatın təyin olunması; səhiyyəyə, mədəni istirahətə, təhsilə, mənzil tikintisinə lazımı vəsaitin ayrılması və s. Dövlətin əsas inkişafı birbaşa olaraq onun sosial funksiyalarından asılıdır. Dövlətin hüquqi, iqtisadi, hakimiyyət funksiyaları stabil şəkil alır və praktiki olaraq dəyişmirlərsə, sosial funksiyalar isə artan istiqamətdə inkişaf edir, bundan əlavə, üstünlük təşkil edən funksiyalara çevrilirlər. Dövlətlərdə sosial funksiyaların xüsusi növlərinin yaranması nəinki cəmiyyətin sosial ehtiyaclarının təmin olunması üçün yeni vasitə oldu, eyni zamanda müvafiq ehtiyacların kəskin və sürətli şəkildə azalmasına da səbəb oldu.

Bir çox hüquqşünaslar sosial funksiyanı heç də dövlətin daxili funksiyasının bir növü kimi qiymətləndirməmişlər. Əsas səbəb isə odur ki, sosial funksiya anlayışına müxtəlif yanaşmalar zamanı sübut olunur ki, “dövlətin funksiya” anlayışı özü birmənalı deyil. Sosial funksiya məzmun və fəaliyyət istiqaməti baxımdan müxtəlifdir. Onun əsas təyinatı ümumi rifahı təmin etmək, hər kəsə bu rifahdan istifadədə bərabər imkanlar

yaratmaqdır. Dövlət elə vətəndaşlarını müdafiə etməlidir ki, onlar özləri müstəqil olaraq öz qayğılarına qala bilmirlər və layiqli həyat səviyyəsini təmin edə bilmirlər. Məsələn: işsizlər, uşaqlar və əmək qabiliyyəti olmayan şəxslər bu kateqoriyaya daxildirlər. Qeyd etmək lazımdır ki, ümumi rifah dövlətini formalaşdırmaq üçün onun bütün funksiyaları, o cümlədən ilk növbədə sosial funksiyası tətbiq olunmalıdır. Açıq-aşkar görünür ki, o dövlət sosial statuslu hesab edilir ki, onun daxili funksiyaları içərisində sosial funksiya böyük əhəmiyyətə malikdir və dövlətin fəaliyyətində olduqca əhəmiyyətli rol oynayır. Buna görə də hüquq elmində və praktikada dövlətin digər funksiyaları içərisində sosial funksiyanın yeri ətraflı tədqiq olunmalı və sosial funksiyanın roluna, onun əsas konsepsiyalarına diqqət yetirilməlidir.

Sosial funksiyanı analiz etdikcə belə bir qənaətə gəlmək olar ki, istənilən müasir dövlət sosial funksiyaya malikdir. Sosial funksiya dövlətin hər bir vətəndaşına müxətlif xarakterli sosial xidmətlər göstərməklə onun bütün fəaliyyətini əhatə edir. Bura vətəndaşın sağlamlığının qeydinə qalmağı, minimum əmək haqqını, pensiyanı müəyyənləşdirməyi aid etmək olar ki, bununla da dövlət hər bir vətəndaşına minimum yaşayış səviyyəsindən aşağı olmayan təminat verir. Fəsildə nəticə olaraq o da qeyd olunmuşdur ki, dövlət sosial funksiyası ilə insanların müstəqil inkişafı və layiqli həyat səviyyəsinin təmin edilməsi üçün şərtlər müəyyənləşdirməlidir.

**İkinci paraqrafda** sosial dövlət sosial hüquqların təminat vasitəsi kimi tədqiq edilir. Sosial dövlət anlayışı üç əsas səviyyədə təhlil edilə bilər: elmi səviyyədə- idea və konsepsiya kimi; normativ səviyyədə-konstitusion prinsip kimi və əsas qanunlarda təsbit olunma vasitəsi kimi; emprik (təcrübi) səviyyədə- cəmiyyətin və müxtəlif sosial qrupların sosial problemlərinin həll edilməsində dövlət orqanlarının fəaliyyətinin real praktikası kimi. Sosial dövlət anlayışını daha yaxşı təhlil edə bilmək üçün ilk növbədə sosial dövlət anlayışının inkişaf tarixinə nəzər yetirmək lazımdır. Sosial dövlətin, inkişafı uzun və müxtəlif mərhələlərə ayrılan hər ölkədə fərqli olan bir müddəti əhatə edir. Sosial dövlət anlayışı hüquq ədəbiyyatında öz əksini ilk dəfə 19-cu əsrin ortalarında Almaniyada Hegel fəlsəfəsinin təsiri altında yazılan alman alimlərinin əsərlərində tapmışdır. Ancaq anlayışın istər inkişafı, istərsə geniş mənada istifadəsi II Dünya Müharibəsindən sonra olmuşdur. II Dünya Müharibəsində baş verən bədbəxtliklər və itirilən canlar, daha yaxşı bir dünya yaratmaq üçün insanlar arasında bir birliyin yaranmasına səbəb oldu. Bu illərdə yaşayan insanlar özlərinə daha yaxşı bir həyat təqdim edə biləcək hökuməti

hakimiyyətə gətirdilər. Əslində rifah dövlətinin ortaya çıxması kapitalizm ilə sosializm arasında üçüncü yol axtarışı olaraq da qiymətləndirilə bilər. Ancaq bu axtarış əsas etibarilə kapitalizmə son qoymaqla deyil, demokratiyadan istifadə edərək kapitalizmi məhdudlaşdırmaq, onu tənzimləməyi, nəzarət etməyi və sosiallaşdırmağı nəzərdə tuturdu. Sosial dövlət anlayışı inkişaf etmiş ölkələrlə az inkişaf etmiş ölkələr arasında fərqli mənalar daşıyır. Əgər İEÖ-də sosial dövlət dedikdə kapitalizmin gətirdiyi gəlirləri xalq arasında daha ədalətli bir şəkildə bölüşdürə bilən dövlət başa düşülürsə, İEOÖ-də isə hər sahədə hər cürə fəaliyyət göstərən bir dövlət modeli olaraq başa düşülür. Bu vəziyyətdə bu paraqrafda belə bir nəticəyə gəlinir ki, inkişaf etmiş bir cəmiyyət sadəcə gəlirlərin bölgüsü ilə maraqlanır. İnkişaf etməmiş cəmiyyətlərdə isə xalqın əlində yetəri qədər kapital olmadığı üçün sosial dövlət özü kapital qoyan qismində çıxış edir. Sosial dövlət anlayışı özü ilə birlikdə yeni müasir bir dövlət anlayışı ilə yanaşı sosial cəmiyyət anlayışını da gətirmişdir. Sosial dövlət vətəndaşları ilə daha çox maraqlanan və daha geniş sahədə fəaliyyət göstərən dövlətdir. Sosial dövlət cəmiyyəti isə hüquqlarını daha yaxşı bilən və onlardan daha yaxşı istifadə edə bilmə qabiliyyətinə malik olan insanların birliyidir. Sosial dövlətdə xalqla dövlət arasında qarşılıqlı bir əlaqə mövcuddur. Sosial dövləti tədqiq etdikcə görürük ki, bu dövlətdə xalq dövlət üçün deyil, dövlət xalqın rifahı üçün fəaliyyət göstərir. Bu paraqrafda hüquqi dövlət və sosial dövlət anlayışına, sosial dövlət və rifah dövləti anlayışına da aydınlıq gətirilmişdir. Hüquqi dövlət fərdi azadlığı, sosial dövlət isə cəmiyyətin rifahını təmin edir. Lakin biz hüquq ədəbiyyatında tez-tez belə bir fikirlə rastlaşırıq ki, hüquqi dövlət sosial dövlətin tələblərini hansı ölçüdə yerinə yetirirsə, o ölçüdə də reallaşa bilər. Bir növ bu fikir onu deməyə çalışır ki, hüquqi dövlətin reallaşması onun sosial dövlətin tələblərini yerinə yetirməsindən asılıdır. Müasir dünyada sözün həqiqi mənasında hüquqi dövlət və sosial dövlət mövcud deyil, amma tez-tez hüquq ədəbiyyatında istinad olunan sosial hüquqi dövlət mövcuddur. Sosial dövlət o zaman inkişaf edə, təsir göstərə bilər ki, o sosial bir hüquq dövləti olsun. *Ona görə də sosial dövlət və hüquqi dövləti bir-birindən ayırmaq olmaz.* Biz tez-tez sosial dövlət anlayışı ilə yanaşı rifah dövləti anlayışına da rast gəlirik. Bəzi müəlliflərə görə hər iki anlayış eyni məna ifadə etdiyi halda, bəzi müəlliflər isə bunun əksini təkzib edərək rifah dövlətinin daha geniş bir anlayış olduğu qənaətindədirlər. Səbəb kimi o göstərilir ki, rifah dövləti hər kəsə müasir bir həyat və yaşayış səviyyəsi təmin edir. Bu fikirlə razılaşanlar hər bir rifah dövlətinin eyni zamanda bir sosial dövlət olduğunu, ancaq hər sosial dövlətin isə bir rifah dövləti olmadığı ideasını irəli sürürlər. Buna

görə də sosial dövlət xüsusiyyətini daşıyan hər bir dövlətə rifah dövləti demək olmaz, çünki rifah dövləti iqtisadi baxımdan güclü rifah siyasətini həyata keçirə bilən dövlət mənasını ifadə edir. Rifah dövləti dedikdə fərdlərə və ailələrə minimum bir səviyyədə gəlir təmin edən, sosial risqləri aradan qaldıran, sosial rifah xidmətləri vasitəsilə bütün vətəndaşlara ən yaxşı yaşayış standartları təmin edən dövlət başa düşülür Sosial dövlət isə cəmiyyətin maraqlarını və cəmiyyət daxilində əlverişsiz vəziyyətdə olan ehtiyac sahibi vətəndaşların hüquqlarını müdafiə edərək onların vəziyyətini yaxşılaşdırmağı qarşısına məqsəd qoyan və bu istiqmətdə sosial sahəyə müdaxilə edən bir dövlətdir. Bu paraqrafda eyni zamanda sosial dövlətin əsas xüsusiyyətləri sadalanmış və sosial dövlətə "insanın dövlət üçün deyil, dövlətin insan üçün çalışdığı" bir dövlət olması şəklində anlayış verilmişdir.

**Üçüncü paraqrafda** sosial siyasət sosial funksiyanın həyata keçirilmə mexanizmi kimi tədqiq olunmuş və sosial siyasət nədir? sualına aydınlıq gətirilmişdir. Sosial siyasət- dövlətin müəyyən məqsəd və hədəflərə çatmaq üçün cəmiyyətə tətbiq etdiyi və cəmiyyətlə bağlı olaraq aldıqları qərarlar və həyata keçirdiyi fəaliyyətlər cəmidir. Anglo-sakson hüquq sistemində sosial siyasət- sosial xidmətlərin kollektiv olaraq təmin olunması deməkdir. Bunlara aiddir: təhsil, sağlamlığı mühafizə, sosial xidmətlər və mənzillə təmin olunmaq hüququ. Kontinental hüquq sistemində isə- əmək münasibətləri, işçilər və işəgötürənlərin hüquqları, həmkarlar ittifaqları ilə bağlı münasibətlər sosial siyasətin məzmununun əsasını təşkil edir. Sosial siyasətin bu günki anlayışı Beynəlxalq Əmək Təşkilatının 117 saylı Konvesiyasında öz əksini tapmışdır. Burada qeyd olunur ki, sosial siyasət cəmiyyətin rifahının və iqtisadi inkişafının təmin olunmasına yönəlməlidir.

Sosial siyasətə verilən anlayışlar əhatə baxımından bir-birlərindən fərqlənirlər. Məsələn: bəzi anlayışlarda sosial siyasət sağlamlığı mühafizə, təhsil və sosial təminat xidmətləri kimi, yerli idarəetmə və dövlətə aid xidmətlərin idarə edilməsi və inkişaf etdirilməsi kimi qəbul edilir. Bəzi anlayışlarda isə sosial siyasət bir ölkədə ictimai problemlərlə əlaqədar olaraq tətbiq olunan siyasət və həyata keçirilən fəaliyyətlər cəmi kimi qəbul edilir. Bu paraqrafda isə sosial siyasəti dar və geniş mənada izah edərək, ona belə bir anlayış verilmişdir: "*Sosial siyasət dedikdə əsas məqsədi sosial ədalət və sosial bərabərlik ilə yanaşı, sosial rifahı təmin etmək olan, iqtisadi siyasəti sosial çalarlarla zənginləşdirən, iqtisadiyyatda baş verən çatışmazlıqları aradan qaldıraraq, sosial tarazlığı təmin edən tədbirlər cəmi başa düşülür.*"

Sosial siyasət ilk əvvəl iqtisadi siyasətin bir törəməsi kimi formalaşmış, sənaye inqilabı və sonradan ortaya çıxan inkişaflar nəticəsində müstəqil bir mövqeyə gəlmişdir. Ancaq bu inkişaf iqtisadi siyasətin və təbii olaraq iqtisadi və sosial siyasət arasındakı münasibətlərin itirildiyi mənasına gəlmir. Bundan başqa sosial siyasət prinsip olaraq dövlət tərəfindən həyata keçirilən "sosial" xüsusiyyətli siyasətləri mövzu olaraq nəzərdən keçirərək araşdıran bir elm sahəsi olaraq qəbul edilir. Dövlətin iqtisadi həyatdakı rolu və sosial siyasətin müəyyənləşdirici və tətbiq edici xüsusiyyətini öhdəsinə götürməsi, sosial siyasət və iqtisadiyyat arasındakı ayrılmaz əlaqədən xəbər verir. Bu baxımdan sosial siyasətin maliyyələşmə mənbəyinin başında dövlət büdcəsinin gəlməsi olduqca mənalıdır. Müasir dövlətlər sosial böhranlardan çıxış yolunu yalnız sosial siyasətlə tənzimləyirlər. Hər bir dövlətin inkişafı onun iqtisadi inkişafından asılı olduğu üçün səbəbli əlaqə kimi göstərmək olar güclü sosial siyasətin arxasında güclü iqtisadi inkişaf dayanır. Sosial siyasətin obyekti və predmeti bir istiqamətli deyil, çox istiqamətlidir və sistematik xarakter daşıyır. Sosial siyasətin predmetinə əmək bazarı, məşğulluq, sosial əməkdaşlıq, sosial müdafiə, sosial sığorta, pensiya sistemi və s. aiddir. Sosial siyasətin obyektinə isə sosial mənsubiyyətindən asılı olmayaraq cəmiyyətin bütün üzvləri daxildir. Sosial siyasətin məqsədi onun məzmunu ilə xarakterizə edilir. Sosial siyasətin məzmununu onun tənzimlədiyi ictimai münasibətlər təşkil edir.

Bu paraqrafda sosial siyasətin əsas hədəfləri göstərilmiş və bu hədəflərin reallaşa bilməsi üçün aşağıda sadalanan dövlətin sosial siyasətlərinin tətbiq olunması təklif edilmişdir:

1. Əldə olunan gəlirin yenidən bölüşdürülə bilməsi üçün dövlətdə sosial yönümlü vergi siyasəti tətbiq olunmalı
2. Minimum həyat standartları müəyyənləşdirilməli
3. Sosial siyasətin həyata keçirilməsində dövlətlə yanaşı xüsusi sektorun iştirakı təmin olunmalı
4. Sosial siyasətin reallaşa bilməsi üçün yeni sosial xidmət mərkəzləri yaradılmalı və mövcud xidmət mərkəzləri təkmilləşdirilməlidir.

Bu paraqrafda eyni zamanda praktikada mühafizəedici sosial siyasətin tətbiq edilməsi və sosial yönümlü vergi siyasəti üçün AR Konstitusiyasına və AR VM-nə müəyyən dəyişikliklər və əlavələrin edilməsi təklif olunmuşdur.

İkinci fəsil **"Azərbaycan Respublikasında sosial hüquqların həyata keçirilməsinin qanunvericilik təminatı"** adlanır və iki paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** insan hüquqları kontekstində sosial hüquqların konstitusiya prioriteti  və layiqli həyat səviyyəsi müəyyən edilmişdir. Birinci paraqrafın birinci yarımparaqrafı **“Sosial hüquqların həyata keçirilməsinin konstitusion hüquqi əsasları”** adlanır ki, məhz bu yarımparaqrafda sosial hüquqlar olmadan mülki hüquq və azadlıqların lazımı məna kəsb edə bilməyəcəyi fikri əsaslandırılmışdır. Mülki hüquq və azadlıqlardan fərqli olaraq, sosial hüquqlar dövlətdən alınan hüquqlar deyil, onun dəstəyi ilə mövcud  olan  azadlıqlardır. Beynəlxalq hüquq normaları sosial hüquqların pozitiv xarakterini daha ümümi anlayışlarla ifadə edir. Məlumdur ki, beynəlxakq hüquqi aktlar insan hüquq və azadlıqlarının təminatı üçün üzv dövlətlərdən eyni fəaliyyət platformasının qurulmasını tələb edir. Lakin sosial hüquqların realizə edilməsi üçün bu və ya digər dövlətin ictimai həyatında siyasi, iqtisadi, sosial və mədəni  proseslərin özünəməxsusluğu əsas rol oynayır. Bu isə sosial hüquqların tənzimlənməsi üçün qaydaları dəyişə bilər. Sosial hüquqlar əsasən sosial problemlərin həll olunmasına xidmət edir. Bu günədək sosial hüquqların standartları ilə bağlı beynəlxalq müstəvidə yekdil bir fikrə gəlinməmişdir. Bütün dövlətlər sosial hüquqları öz konstitusiyalarında adi hüquqlar səviyyəsində təsbit edirlər. Onu da qeyd edək ki, konstitusion səviyyədə bu sosial hüquqların yalnızca başlıca müddəaları tənzimlənir. Əsas məsələlər isə daha geniş formada ayrı-ayrı normativ hüquqi aktlarla tənzimlənirlər. Bu yarımparaqrafda sonda gəldiyimiz əsas nəticələrdən biri o olmuşdur ki, biz bütün sosial hüquqların konstitusion təminatı üçün onların konstitusiyada təsbit olunmasını təklif etmişik. İkinci bir təklif isə sosial hüquqlara verilən anlayışla bağlıdır. Belə ki, dünya praktikasında sosial hüquqların məzmununa tam olaraq hansı hüquqların daxil olduğu və dolayısı ilə bu anlayışın necə müəyyənləşməsi ilə bağlı da yekdil bir fikrə gəlinməmişdir. Çox vaxt sosial hüquqlar “sosial və iqtisadi hüquqlar”, “ya da “iqtisadi, sosial və mədəni hüquqlar” ilə eyni məna, ya da bu bunları əhatə edəcək şəkildə istifadə olunmaqdadır ki, əslində isə bu da düzgün deyil. Buna görə də sosial hüquqlara belə bir anlayış verilməsi daha məqsədəmüvafiq hesab edilmişdir: *“Sosial hüquqlar dedikdə insan və vətəndaşın sosial statusu ilə bağlı olub, başlıca məqsədi insanın layiqli həyat səviyyəsini təmin etmək olan və dövlətin müdafiə mexanizmi ilə qorunan insan hüquqlarının xüsusi bir növü başa düşülür”*

Bu paraqrafın **“Layiqli həyat səviyyəsi hüququnun konstitusion hüquqi təminatları və  dövlətin sosial funksiyası ilə qarşılıqlı əlaqəsi”** adlı  **ikinci yarımparaqrafında** layiqli həyat səviyyəsi anlayışı tədqiq olunmuşdur. Layiqli həyat səviyyəsi əsas təlabatlarla bağlı müəyyən

siyahını müəyyənləşdirən göstəricidir. Layiqli həyat səviyyəsi bütün dünya dövlətlərində eyni meyar, eyni anlayış kimi qəbul edilə bilməz. Yalnız əsas tələbatların təmin olunması nöqteyi nəzərindən universal anlayış kimi qəbul edilə bilər. Lakin universal qəbul olunan əsas tələbatların təmin olunması səviyyəsi isə dövlətlərin səviyyələrinə və oradakı insanların həyat səviyyələrinə görə fərqlənir. Buna görə də bir sıra iqtisadçılar və hüquqşünaslar hesab edirlər ki: layiqli həyat səviyyəsi yaşayış minimumudur. Lakin onu da xüsusilə vurğulamaq lazımdır ki, hüquq və iqtisadiyyat elmində "layiqli həyat səviyyəsi" anlayışı hələ də birmənalı qəbul edilməmişdir. İqtisadi konsepsiyanın tərəfdarları layiqli həyat səviyyəsi anlayışına daha çox ictimai istehlak fondları hesabına həyata keçirilən və cəmiyyət üzvlərinə göstərilən yardımın bütün növü kimi baxırlar. Hüquqi konsepsiyanın tərəfdarları isə hesab edirlər ki, layiqli həyat səviyyəsi dövlət tərəfindən yardıma möhtac insanlara göstərilən yardımdır. Bunun üçün də dövlət sosial vəziyyəti aşağı olan vətəndaşlarını daim nəzarətdə saxlamalıdır. Layiqli həyat səviyyəsi hüququ dövlət qayğısından irəli gələn şəxsi hüquq kimi müəyyən edilir, hansı ki, bu hüququn tam realizə olunması ilə hər bir insan özünün və ailəsinin minimum həyat səviyyəsinin təmininə nail ola bilir. Hər bir insanın layiqli həyat səviyyəsi hüququnun təmin olunması üçün dövlət hər bir insana elə bir şərait yaratmalıdır ki, o öz zəhməti ilə ailəsinin təminatını ödəyə bilsin və kimsəsizlərə yardım edə bilsin, maddi çətinliklərini özünün maddi imkanlarından asılı olaraq aradan qaldıra bilsin və bunu minimum yaşayış səviyyəsindən aşağı olmadan həyata keçirə bilsin. Daha doğrusu dövlət əmək qabiliyyətli hər bir vətəndaşını elə bir işlə təmin etməlidir ki, bu işdə aldığı minimum əmək haqqı onun və ailəsinin minimum tələbatlarını ödəyə bilsin. Əmək qabiliyyətsiz və ya əmək qabiliyyəti məhdud olan insanlara gəldikdə isə dövlət onları elə müavinatla təmin etməlidir ki, bu müavinat onun və tabeliyində olan ailəsinin minimum tələbatlarını ödəyə bilsin.

Layiqli həyat səviyyəsi hüququ kompleks hüquq institudur. O özündə konstitusion səviyyədə və ya beynəlxalq hüquq normaları ilə təsbit olunan və layiqli həyat səviyyəsini təmin edən bütün sosial hüquqları birləşdirir. Bu mənada layiqli həyat səviyyəsi hüququnu sosial hüququn bir növü kimi qəbul edənlərin fikirləri ilə qəti şəkildə razılaşmaq olmaz. Çünki, layiqli həyat səviyyəsi hüququ kompleks xarakterinə görə sosial hüquqdan daha geniş münasibətləri tənzim edir və özündə bütün sosial hüquqların minimum standartlarını nəzərdə tutur.

Konstitusiyamızın 12-ci maddəsi layiqli həyat səviyyəsinin təmin olunmasını dövlətin başlıca vəzifəsi kimi qeyd etmişdir. Lakin layiqli həyat

səviyyəsi hüququ əsas insan və vətəndaş hüquq və azadlıqları bölməsində öz əksini tapmamışdır. Halbuki, layiqli həyat səviyyəsi hüququ konstitusion səviyyədə və ya beynəlxalq hüquq normaları ilə təsbit olunan və layiqli həyat səviyyəsini təmin edən bütün sosial hüquqları birləşdirir və kompleks xarakterinə görə də sosial hüquqlardan daha geniş münasibətləri tənzimləyərək, özündə bütün sosial hüquqların minimum standartlarını nəzərdə tutur. Bu baxımdan layiqli həyat səviyyəsi hüququnun konstitusion səviyyədə təsbit olunması bu hüquq üçün əlavə zəmanətlər müəyyən edə bilər.

Bu fəslin ikinci paraqrafı **"Dövlətin sosial funksiyasının həyata keçirilməsində əmək və sosial təminat qanunvericiliyinin rolu"** adlanır və iki yarımparaqrafdan ibarətdir. Birinci yarımparaqraf **"Azərbaycan Respublikasının əmək qanunvericiliyində dövlətin sosial funksiyasının istiqamətləri"** adlanır. Əmək hüququ işçilərin əsas konstitusion hüquqlarından biri hesab edilir. Əksər sosial dövlətlər öz konstitusiyalarında əmək hüququnu sosial hüququn bir növü kimi qiymətləndirirlər. Bizim Konstitusiyamızda da əsas insan hüquqlarından biri kimi 35-ci maddədə əmək hüququna toxunulmuşdur. "Əmək hüququ" adlanan 35-ci maddə 8 bənddən ibarət olmaqla özündə əsas prinsipləri əks etdirir. Konstitusion səviyyədə tənzimlənən əsas məsələlərə diqqət yetirsək görərik ki, 8 bənddə işsizlikdən başlayaraq, məcburi əməyin qadağan olunması da daxil olmaqla minimum əmək haqqı, işsizlik müavinatı, işsizliyin aradan qaldırılması vasitələrinədək geniş münasibətlərə toxunulmuşdur. Bu baxımdan konstitusiyamızı təkmil hesab etmək olar. Təbii ki, əmək hüquq münasibətlərindən danışdıqda subyekt kimi təkcə işçi deyil, həm də işəgötürən çıxış edir. Lakin işçilər iqtisadi baxımından əmək müqaviləsi çərçivəsində işəgötürəndən asılı olduğundan və fərdi əmək müqaviləsinin mərkəzində işçi ilə bağlanılan əmək müqaviləsindən irəli gələn əmək münasibətləri dayandığından dissertasiya işində daha çox işçilərlə bağlı münasibətlərə toxunulmuşdur. İşçilərin əsas hüquqları dedikdə qadın və gənc işçilərin sosial müdafiəsinə bağlı olaraq inkişaf etmiş sosial təminat hüququ, birləşmək hüququ, kollektiv əmək müqaviləsi və tətil hüququ, əmək təminatı hüququ, istirahət hüququ, işçinin sağlamlıq hüququ başa düşülür.

Bu yarımparaqrafda əmək haqqı nədir və işçilərin sosial müdafiəsi baxımından hansı şəkildə ödənilməlidir? sualına aydınlıq gətirilmişdir. Mövcud problemlər araşdırılmış və onların həlli üçün müəyyən təkliflər irəli sürülmüşdür. Əvvəla minimum əmək haqqı müəyyənləşərkən işçi ilə yanaşı işçinin öhdəliyində olan ailə üzvlərinin də minimum ehtiyacları nəzərə alınmalıdır. Bundan başqa ölkədəki həyat standartları baxımından

fərqli regionların mövcudluğu da nəzərə alınaraq, regionların həyat səviyyəsinə uyğun minimum əmək haqqı müəyyənləşirilməlidir.

Qeyd olunanları nəzərə alaraq, dövlətin sosial funksiyasının artırılması istiqamətində atılan addımları daha da möhkəmləndirmək məqsədilə birinci növbədə ixtisassız əməyə görə ödənilən minimum əmək haqqına verilən anlayışa dəyişiklik etmək daha məqsədəmüvafiq olardı. Fikrimizcə minimum əmək haqqı söz birləşməsindəki minimum sözünü hərfi mənada götürərək minimum əmək haqqına anlayış vermək olmaz. Əslində minimum əmək haqqı işçinin özü və ailəsinin minimum layiqli həyat səviyyəsini təmin edən sosial normativ olmalıdır. Bu prizmadan çıxış edərək "Yaşayış minimumu haqqında" AR Qanunun 1.08-ci maddəsində və ƏM-nin 155.2-ci maddəsində minimum əmək haqqına verilən anlayışlar dəyişidirilərək, belə bir anlayış verilməsi daha məqsədə müvafiq olardı. "*Minimum əmək haqqı iqtisadi, sosial şərait nəzərə alınmaqla qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə işçiyə ödənilən, işçinin özünə və ailəsinə sosial baxımdan minimum layiqli həyat səviyyəsi təmin edən sosial normativdir."*

**İkinci yarımparaqrafda** sosial təminat qanunvericiliyi sosial funksiyasının xüsusi mexanizmi kimi nəzərdən keçirilmişdir. Sosial təminat dedikdə hər hansı bir sosial risq səbəbilə gəliri və ya qazancı azalmış şəxslərin başqalarının yardımından istifadə etmədən gündəlik minimum ehtiyaclarını qarşılamağa imkan yaradan sosial siyasətin ən vacib vasitələrindən biri başa düşülür. Hər bir insan bütün həyatı boyunca müxtəlif sosial risqlərlə qarşılaşır ki, bu da birbaşa onun sağlamlığına və əmək qabiliyyətinə, əsas dolanışıq mənbəyi olan əmək haqqının itirilməsinə və ya əlavə gəlir itkisinə səbəb olur. Sosial risq- bu ehtimal olunan hadisə şəxsdə əmək qabiliyyətinin itirilməsi ilə müşahidə olunan maliyyə itkisinə səbəb olur ki, bu da nəticədə ailənin saxlanılmasına, uşaqlar və digər əmək qabiliyyəti olmayan ailə üzvlərinə qulluqla bağlı əlavə xərclərə, tibbi və sosial xidmətlərlə bağlı təlabatlara mənfi təsir göstərir. Ortaya çıxan əlavə xərclər və ya gəlir itkisini hansı ki, fərdlərin təkbaşına öhdəsindən gələ bilməsi mümkün deyil sosial təminat aradan qaldırır. Sosial təminatın əsas məqsədi hər bir insana möhtac olmadan və azadlığından fədakarlıq etmədən layiqli bir həyat səviyyəsi təmin etməkdir. Sosial təminatın mahiyyəti onun funksiyalarında özünü göstərir. Sosial təminatın əsas funksiyası müxtəlif sosial risqlərin səbəb olduğu gəlir itkisinə və ya xərc artımlarına qarşı kompensasiyyaedici təsir göstərən sosial yardım və sosial dəstəklərdir desək yəqin ki, yanılmarıq. Bizim qanunvericiliyimiz isə yalnız yaşayış minimumuna aydınlıq gətirmişdir, lakin BƏT-in 1952-ci ildə qəbul etdiyi "Sosial Təminatın Minimum Normaları haqqında" 102-saylı Konvensiyası

mövcuddur ki, əgər biz yaxın gələcəkdə konvensiyanı ratifikasiya etmiş olsaq, bu zaman konvensiyada sosial təminatın minimum normaları ilə bağlı məsələlərə, bununla yanaşı bugünədək anlayışı verilməyən layiqli həyat səsviyyəsi ilə bağlı məsələlərə də aydınlıq gətirilmiş olacaqdır. Bu baxımdan əsas təkliflərdən biri də odur ki, bu konvensiya tezliklə ratifikasiya olunsun.

Konstitusiyanın 38-ci maddəsi yardıma möhtac olanlara yardım etməyi ilk növbədə onların ailə üzvlərinin üzərinə vəzifə kimi müəyyənləşdirmişdir. Bu bənd bir qədər adət-ənənələrdən ruhlanaraq əlavə olunmuşdur, əslində isə ailə bağlarının getdikcə zəifləməsi bu bəndin istifadəsiz hala çevrilməsinə təkan verir. Digər tərəfdən ailə üzvləri bu yardımı yalnızca maddi imkanlarından asılı olaraq həyata keçirə bilərlər ki, bu da nəticədə məhdud maddi imkanlı ailə üzvləri olan yardıma möhtacların köməksiz qalması deməkdir. Qeyd edilən bütün təhlil və arqumentləri nəzərə alaraq, Konstitusiyanın 38-ci maddəsinin 2-ci bəndinə dəyişiklik edilərək yardıma möhtac olanlara kömək etməyi dövlət vəzifəsi kimi müəyyənləşdirməyi daha məqsədəuyğun hesab edirik.

Üçüncü fəsil **“Sosial sahədə beynəlxalq standartların Azərbaycan Respublikasında implementasiyası”** adlanmaqla iki paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** sosial funksiyanın təmin olunmasında AR-in universal beynəlxalq öhdəlikləri tədqiq olunmuşdur. Hər birimizə çox yaxşı bəllidir ki, bütün dövlətlər qarşılıqlı yardımlaşma prinsipi əsasında fəaliyyət göstərirlər. Bir dövlət məhsul istehsal edirsə, digəri istehlak edir, biri sərmayədar kimi çıxış edirsə, digəri isə sərmayəni qəbul edir və ya əksinə. Beləliklə, elə bir dövlət yoxdur ki, beynəlxalq mühitin təsirindən yan keçə bilsin. Dövlətlər arasında müxtəlif sferalarda - sülh və əmin-amanlığın bərpa olunması, yoxsulluğun aradan qaldırılması, ölkələrarası iqtisadi tarazlığın yaradılması, insan hüquqlarının təmin olunması və s. kimi iqtisadi, sosial, siyasi sferalarda münasibətlərin qurulmasında beynəlxalq təşkilatların rolu əvəz olunmazdır.

Dövlətimiz sosial problemlərin həll olunmasında bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Bunlardan bir də Beynəlxalq Əmək Təşkilatıdır. Sosial ədaləti və daha yaxşı yaşamaq şərtlərini təmin etmək məqsədilə dövlət, işəgötürən və işçinin birlikdə fəaliyyət göstərməsini təmin etmək istəyən BƏT müəyyənləşdirdiyi bu standartlarla ona üzv olan dövlətlərin bu sahədəki problemlərinə qəbul etdiyi konvesiyalarla müəyyən qədər təsir imkanına malikdir. Azərbaycan 1992-ci ilin mayından BƏT-in tam hüquqlu üzvüdür. 1992-ci ildən bu günədək BƏT-lə əmək münasibətləri, məşğulluq, əməyin təhlükəsizliyi və mühafizəsi,

qanunvericiliyin təkmilləşdirilməsi sahəsində əməkdaşlıq daim genişlənmişdir. AR-in iştirakçısı olduğu Beynəlxalq Əmək Təşkilatının konvensiyalarının milli qanunvericiliyə inkorporasiya olunmasının bariz nümunəsi kimi 1 fevral 1999-cu ildən qüvvəyə minmiş AR-in Əmək Məcəlləsini, 2 iyul 2001-ci il tarixdə qəbul edilmiş "Məşğulluq haqqında Azərbaycan Respublikası Qanunu"nu və digər normativ-huquqi aktları misal göstərmək olar. Azərbaycan BƏT-in 8 əsas konvesiyasının (29, 87, 98, 100, 105, 111, 138, 182 saylı konvesiyalar) tam mətnini ratifikasiya etmişdir ki, bu konvesiyalar BƏT-in əsasını təşkil edən konvesiyalar adlanır və daha çox sosial yönümlülüyü ilə seçilirlər.

Bununla yanaşı beynəlxalq təşkilatlarla əməkdaşlıq Respublikamızda çoxsaylı sosial yönümlü proqram layihələrin həyata keçirilməsinə səbəb olmuşdur. Öz sosial yönümlülüyü ilə seçilən Azərbaycanın ratifkikasiya etdiyi aktlara gəldikdə isə onlardan: 1948-ci il 10 dekabr "İnsan hüquqları üzrə Ümumi bəyannaməsi"ni, 1966-cı il 16 dekabr tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" paktı, hansı ki, AR bu paktı MM-in 1992-ci 21 iyul tarixli 226 nömrəli qərarına əsasən ratifikasiya etmişdir, 1989-cu il 20 noyabr tarixli Uşaq hüquqları Konvesiyasını hansı ki, AR bu paktı MM-in 1992-ci 21 iyul tarixli 236 nömrəli qərarına əsasən ratifikasiya etmişdir, "İcbari əməyin ləğv edilməsi haqqında" 1957-ci il 1 fevral tarixli Konvensiyanı, hansı ki, AR bu konvensiyanı MM-in 2000-ci il 17 mart tarixli 897-İQ nömrəli qərarına əsasən ratifikasiya etmişdir və s. bunun kimi onlarca beynəlxalq aktları göstərmək olar hansı ki, daha çox sosial münasibətlərin tənzimlənməsinə həsr olunmuşlar. İnsan hüquqları üzrə Ümumi Bəyannamənin əmək münasibətləri ilə bağlı 23-cü maddəsində nəzərdə tutulan müddəaların əksəriyyəti Konstitusiyamızın "Əmək hüququ" adlanan 35-ci maddəsində nəzərdə tutulmuşdur. Lakin bəyannamənin 23-cü maddəsinin 3-cü bəndində belə bir müddəa nəzərdə tutulmuşdur ki, "hər bir işləyən şəxs, əməyinin lazım gələrsə digər sosial müdafiə vasitələrilə tamamlanan, onun özünün və ailəsinin layiqli dolanışığını təmin edə bilən ədalətli və qənaətbəxş ödənilməsi hüququna malikdir". Konstitusiyamızda isə bu məsələ 35.6 maddəsində belə ehtiva olunmuşdur: "Hər kəsin ........heç bir ayrı seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır." Layiqli həyat səviyyəsinin təmini üçün yaxşı olardı ki, Konstitusiyanın 35.6 maddəsinə *"Hər kəsin heç bir ayrı seçkilik qoyulmadan ailəsinin və özünün layiqli dolanışığı üçün ədalətli və qənaətbəxş əmək haqqı almaq hüququ vardır" şəklində əlavə olunsun.*

İkinci paraqraf **"Sosial sahədə regional standartların təmin edilməsinin konstitusion hüquqi əsasları"** adlanır və üç yarımparaqrafdan ibarətdir**. Birinci yarımparaqrafda** Avropa Şurası sosial normalarının AR qanunvericiliyinə implementasiyası məsələsi tədqiq edilmişdir. Azərbaycanın da üzv olduğu Avropa Şurası öz hüquqi statusuna görə ən böyük regional beynəlxalq təşkilatlardan biri hesab edilir. BMT Nizamnaməsinin məqsəd və prinsiplərini rəhbər tutan AŞ-da təmsilçilik ölkəmiz üçün böyük perspektivlər müəyyənləşdirir. AŞ təsis edildikdən sonra insan hüquqlarının müdafiə edilməsi ilə bağlı 1953-cü ildən qüvvəyə minən "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya dünyada ən effektiv və nəzarət mexanizminə malik olan sənəd hesab edilir. Azərbaycan bu Konvensiyanı 25.12.2001-ci il tarixində imzalamış, 15.04.2002-ci ildə ratifikasiya etmişdir. Konvensiya qüvvəyə mindikdən sonra protokollar vasitəsilə əlavələr edilməyə başlanıldı ki, Azərbaycan yalnızca bu protokollardan 1, 4, 6 və 7 saylı protokollarını təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş ərazilərlə bağlı müəyyən qeyd şərtlərlə ratifikasiya etmişdir. "İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında Konvensiya"da fundamental hüquq və azadlıqlar əks olunmuşdur. Sosial hüquqlarla bağlı müddəalar isə AŞ çərçivəsində ayrıca norma ilə Avropa Sosial Xartiyası ilə tənzimlənir. AR Yenidən Baxılmış ASX-na 6 yanvar 2004-cü ildə qoşulmuşdur. AR Yenidən Baxılmış ASX-nın II hissəsində əks olunmuş maddələrdən 18-ni ratifikasiya etmişdir. Azərbaycanın ratifikasiya etmədiyi maddələrdən biri də ASX-nın 12-ci maddəsidir ki, bu maddə sənədi imzalayan dövlətlərdə sosial təminat sistemlərinin mahiyyətindən bəhs edir. İlk növbədə, bu maddə üzv dövlətlərin üzərinə sosial təminat sistemini yaratmaq və ya saxlamaq öhdəliyini qoyur. Bundan əlavə, qeyd edilən müddəa minimum standartları müəyyən edərək, sosial təminat sistemininin ən azı Avropa Sosial Təminat Məcəlləsinin ratifikasiyası üçün tələb edilən səviyyəyə bərabər olan qənaətbəxş səviyyədə saxlanılmasını, sosial təminat hüququnun verilməsi hüququnun şərtləri və məbləğlərinə dair məsələləri özündə ehtiva edir. Qeyd olunur ki, 12-ci maddə üzrə öz üzərinə öhdəlik götürən üzv dövlətlər nəinki sosial təminat sistemi yaratmalı, sosial təminat sisteminin tədricən daha yüksək səviyyəyə qaldırılmasına çalışmalıdır. Dövlət üçün bu maddədən irəli gələn öhdəliklər çox olsa da sosial təminat sisteminin yaradılması və bu sistemin daha yüksək səviyyəyə qaldırılması baxımından 12-ci maddənin ratifikasiya edilməsi olduqca əhəmiyyət daşıyır. Bundan başqa Respublikamızda sosial sahədə gedən inkişafı nəzərə alaraq, ASX-nın sağlamlıq imkanları məhdud şəxslərin sosial inteqrasiya və cəmiyyətin

həyatında iştirakını, uşaq və gənclərin sosial, hüquqi və iqtisadi müdafiəsini, miqrant işçilərin və onların ailələrinin müdafiəsini, yoxsulluqdan və sosial təcriddən müdafiəni və s. sosial hüquqları nəzərdə tutan 15-ci, 17-ci, 19-cu və 30-cu maddələrinin ratifikasiya olunmasının da artıq çoxdan zamanı çatdığı fikrindəyik.

**İkinci yarımparaqrafda** Avropa İttifaqı sosial normalarının AR qanunvericiliyinə implementasiyası tədqiq olunmuşdur. AR beynəlxalq təşkilatların işində fəal iştirak edərək milli maraqlarını müdafiə etməkdə rastlaşdığı çətinlikləri aradan qaldırmağa müvəffəq olur. Dövlətimizin əməkdaşlığına daha çox əhəmiyyət verdiyi beynəlxalq təşkilatlardan biri də Aİ-dır. Aİ tərəfindən irəli sürülən Vahid Avropa Birliyi formulu Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Bu formulun əsas məqsədi region dövlətlərlə təşkilat arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın möhkəmləndirilməsidir. Azərbaycanın Aİ ilə əlaqələri bir sıra hüquqi sazişlərin bağlanması ilə azad bazar iqtisadiyyatının inkişafına, insan hüquqlarının müdafiəsi istiqamətində müsbət nəticələrin əldə olunmasına səbəb olmuşdur. Avropada inkişafın təmin olunması üçün Aİ-nın ən mühüm və ayrılmaz siyasəti sosial siyasət hesab edilir. Bu siyasətin əsas məqsədi vətəndaşların yüksək səviyyədə sosial müdafiə olunmasının təmini və bütün Avropada sosial sabitlik və sosial ədalətin bərqərar olunmasıdır. Avropada belə bir fikir vardır ki, avropa sosial ideası heç vaxt köhnələ bilməz, o sadəcə zamanın tələblərinə uyğun daim dəyişə bilər. Azərbaycan Aİ ilə münasibətlərinin hüquqi əsasını 1996-cı il 22 apreldə imzalanmış, 1 iyul 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə qoymuşdur. TƏS-in 43-cü maddəsinə əsasən AR qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması sahəsində öz üzərinə götürdüyü öhdəliklərin icra edilməsi məqsədilə "AR qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması üzrə 2010-2012-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdi. Azərbaycanın Aİ ilə əməkdaşlıq əlaqələri 2004-cü ildən həyata keçirilən Avropa Qonşuluq Siyasəti ilə daha da möhkəmləndi. AQS ölkəmizdə iqtisadi, hüquqi və inzibati islahatların həyata keçirilməsinə imkan qazandırdı ki, bu proqram çərçivəsində Azərbaycan Avropa ölkələri ilə qarşılıqlı iqtisadi əlaqələr qurmağa, güzəştli kreditlərin verilməsi ilə əmək və bazar münasibətlərinə yeni maliyyə mənbələrinin cəlb olunmasına nail oldu. Bütün bu proseslər çərçivəsində ölkədə getdikcə sosial şərait inkişaf etməyə başladı. Əsası 2009-cu ildə qoyulmuş "Şərq tərəfdaşlığı" isə Aİ və tərəfdaş ölkələr arasında münasibətlərin gücləndirilməsi üçün yeni təşəbbüsdür. "Şərq tərfdaşlığı"nda məqsəd tərəfdaş ölkələri Aİ-na daha da yaxınlaşdırmaq,

sabitlik, yaxşı idarəçilik və iqtisadi inkişafa nail olmaqdır. Şərq tərəfdaşlığı üçün əsas meyar regional inkişafa nail olmaqdır.

Bu yarımparaqrafda 1989-cu ildə qəbul edilən "Birliyin Sosial Xartiyası" ilə milli qanunvericiliyin, daha doğrusu Birliyin Sosial Xartiyasındakı 12 əsas hüquqla AR ƏM-dəki əsas normalar müqayisəli şəkildə təhlil olunmuşdur. Təhlillər nəticəsində müəyyən olunmuşdur ki, bu hüquqların bir çoxu ƏM-də öz əksini tapmışdır. Yeganə yaşlı işçilərlərin hüquqları bağlı nə ƏM-də, nə də Konstitusiyada heç bir müəddəaya rast gəlinməmişdir ki, *əslində isə getdikcə pensiya yaş həddinin yuxarı qaldırılması yaşlı işçilələrlə bağlı müddəaların qanunvericilik səviyyəsində tənzimlənməsini tələb edir.*

**Üçüncü yarımparaqrafda** MDB dövlətlərinin sosial sahədə əməkdaşlığının xüsusiyyətləri tədqiq olunmuşdur. MDB-nin əsas məqsədlərindən biri üzv dövlətlər üçün sovet mühitindən rahat formada azad olmaq, o cümlədən, yenicə müstəqilliyini qazanmış ölkələrin zəifləmiş iqtisadi vəziyyətinin, əhalinin sosial vəziyyətinin nizama salınması təşkil edirdi. MDB-yə üzv dövlətlər 1995-ci il "İnsan hüquq və azadlıqları haqqında" MDB Konvensiyasını imzaladılar ki, bu konvensiya MDB müstəvisində sosial təminat sferasında əsas məsələləri tənzimləyir. Konvensiyada yaşa görə, xəstəliyə görə, əlilliyə, uşaqlara, ailə başçısını itirməyə görə sosial sığortalar da daxil olmaqla, hər kəsin sosial təminat sferasında hüquqları təsbit edilmişdir. İnsanların sosial və tibbi yardım hüquqlarına daha da effektiv təsir üçün, razılığa gələn tərəflər o şəxslərin hüquqlarını təmin etməlidirlər ki, onlar təkbaşına və ya başqalarının yardımı olmadan bu hüquqlarını realizə edə bilmirlər, xəstələndikdə onlara əlavə sosial yardım və qayğı tələb olunur. Haqqında danışılan sənəd Ermənistan, Belarusiya, Qırğızıstan, Moldova, Rusiya və Tacikistan tərəfindən imzalansa da, ratifikasiya olunmamışdır. AR və Ukrayna isə sənədi ümumiyyətlə imzalamamışlar. AR-in də müvafiq sənədə qoşulmamasının səbəbi gələcəkdə Avropa Şurasına üzv olması və insan hüquqları sahəsində ən qabaqcıl sənədlərdən hesab olunan İnsan hüquqları Konvensiyasını ratifikasiya etməsi kimi siyasi bir addımı planlaşdırması və Avropa Şurasının Moldova, o cümlədən Ukrayna kimi dövlətlərə etdiyi tövsiyələrdən özü üçün nəticə çıxarması idi. Hələ 1992-ci ildə MDB müstəvisində iştirakçı dövlətlər tərəfindən əhalinin əmək, miqrasiya və sosial müdafiə üzrə Məşvərətçi Şuranın yaradılması haqqında Saziş qəbul olunmuşdu. Həmin sazişin 2-ci maddəsinə əsasən, yaradılacaq şuranın məqsədlərinə qarşılıqlı maraq doğuracaq məsələlərdə razılaşdırılmış siyasətin əsas götürülməsi, üzv dövlətlərin müvafiq sahələrdə qanunvericiliklərinin harmonizasiyası və s. təşkil edirdi. AR sözügedən

sazişə 1994-cü ildə qoşulmuşdu. Son dövrlərdə MDB sağlamlıq hüququ ilə bağlı müxtəlif kateqoriya insanları nəzərə alaraq, aidiyyatı qərarlar, konsepsiyalar işləyib hazırlamışdır. Azərbaycan da daxil olmaqla, Belarusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldava, Tacikistan, Özbəkistan, Ukraynanın da qoşulduğu 27 mart 1997-ci il tarixli "Vətəndaşlara tibbi yardımın göstərilməsi ilə bağlı" Müqavilə, Həyat şəraitinin yaxşılaşdırılması və müharibə veteranları, yerli münaqişələrin sülhməramlı əməliyyatların iştirakçıları və MDB üzvü olan dövlətlərdə terror qurbanları üçün tibbi profilaktik tədbirlərin görülməsi məqsədilə 2009-cu il tibbi və sosial inkişaf Konsepsiyası, 2011-2015-ci illər üçün MDB-nin üzv dövlətlərinin ərazisində sağlamlıq imkanları məhdud olan şəxslərin, Böyük Vətən Müharibəsi iştirakçılarının və onlara bərabər şəxslərin güzəştli keçidi üçün talon vərəqlərinin hazırlanmasına dair 15 aprel 2011-ci il Qərarı bu qəbildəndir və müvafiq sənədlər ölkəmiz tərəfindən imzalanmışdır.

Yarımparaqrafda həmçinin MDB üzvü olan ayrı-ayrı dövlətlərin konstitusiyaları da sosial funksiyanın tənzimlənməsi baxımından nəzərdən keçirilmişdir.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, o cümlədən dövlətdaxili normativ hüquqi sistem üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Sosial təcridlənməyə qarşı yerində və yerli müdaxilə olaraq sosial bələdiyyəçilik // Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2011, №3(27), s.171-176

2. Sosial dövlət qurmağa yönələn tədbirlər // Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2011, №4(28), s.160-164

3. Qloballaşma və sosial siyasət // Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2012, №3(31), s.64-71

4. Sosial dövlət və onun əsas xüsusiyyətləri // Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2012, №4 (32), s.81-85

5. Sosial dövlət və ailə // Bakı Universitetinin Xəbərləri, sosial-siyasi elmlər seriyası Bakı, 2012, №4, s. 56-64

6. Sosial siyasətin sosial funksiyanın həyata keçirilməsində rolu // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş xüsusi buraxılış, Bakı, 2013, № 58, s. 270-279

7. Sosial hüquqlar və Avropa ölkələrində onların implementasiyası // Dirçəliş – XXI əsr. Bakı, 2013, 178-179, s.301-317

8. Sosial siyasətin həyata keçirilməsində beynəlxalq təşkilatların rolu. Dünya Bankı / Elmi Məcmuələr Bakı, 2013, cild 15 №4, s. 196-207

9. Social security and military service in the Republik of Azerbaijan // Матеріали міжнародної науково-практичної конференції «Держава І Громадянське Суспільство: Стан Та Перспективи Розвитку» 2013, ст.36-38 (Ukrayna Respublikası)

10. Различные способы благополучия как один из новых понятий обеспечения социального благополучия. Структуры, обеспечивающие социальное благополучие // Право І суспільство, 2013, №3, ст.210-218 (Ukrayna Respublikası)

11. Sosial müdafiənin konstitusion– hüquqi əsasları / 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr edilmiş Beynəlxalq elmi-praktik konfrans (13-14 dekabr 2012-ci il). Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri. Bakı, 2013, I cild,. s.110-112

12. Sosial funksiya və sosial hüquqların təmin olunmasında onun əhəmiyyəti // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2014, № 60, s. 222-231

13. Yaşlıların sosial müdafiəsinə yönələn sosial siyasətlər. Almaniya, İtaliya, İsveç, İngiltərə kimi rifah dövlətlərin timsalında / Elmi Məcmuələr Bakı, 2014, cild 16 №2, s.117-128

14. "Gəlir (mənfəət) güdməyən təşkilatlar" və sosial rifahın təmin olunmasında onun artan rolu // Nəqliyyat hüququ, Bakı, 2014, №1, s.125-149

# РЕЗЮМЕ

Диссертационная работа Айтекин Назим гызы Ибрагимовой на соискание ученой степени доктора философии по праву по специальности 5607.01- "Конституционное право; муниципальное право", называемая "Конституционно-правовые аспекты социальной функции Азербайджанской Республики" будучи независимой, креативной и завершенной работой содержащей совершенно новые положения, играет важную роль в определении правовых аспектов социальной функции Азербайджанской Республики и конституционно-правовых аспектов государства. Диссертационная работа сформирована на основе сравнительного анализа законодательства Азербайджана и других государств, а также различных мнений авторов юридической литературы, в том числе и опыта разных стран.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введение обосновывается актуальность темы, раскрываются степень ее разработанности, представленные к защите положения, цели и задачи исследования, ее теоретическое значение.

Первая глава исследования называется «Общие характеристики социальной функции» и состоит из трех параграфов. Глава первая посвящена вопросам как научный анализ роли социальной функции и значение социальной функции в области обеспечения социальных прав, социальное государство как гарантия социальных прав, социальная политики как механизм реализации социальной функции и т.д.

Вторая глава диссертационной работы называется "Законодательная гарантия реализации социальных прав в Азербайджанской Республике" и состоит из двух параграфов. Эта глава ориентирована на широкий диапазон вопросов, касающихся изменений в действующее законодательство и опыта реализации законодательства, а также на обеспечение правовой экспертизы законопроектов.

Третья глава называется "Имплементация международных стандартов в социальной сфере в Азербайджанской Республике» и состоит из двух параграфов. Вопросам, проанализированным в этой главе касаются: реализация международных обязательств Азербайджана на всемирном уровне в целях обеспечения социальной функции республики, конституционно-правовая основа предоставления региональных социальных стандартов, аппроксимация законодательства Азербайджанской Республики с социальными нормами Совета Европы и Европейского Союза, характеристики социального сотрудничества стран СНГ и т.д.

Заключение диссертационной работы включает значительные предложения и результаты, достигнутые как общий результат научного исследования.

## SUMMARY

Aytekin Nazim qizi Ibragimova's dissertation work presented for attaining the degree of Doctor of Philosophy in the specialization 5607.01- "Constitutional Law; Municipal law" called "Constitutional legal aspects of the social function of the Republic of Azerbaijan", plays an important role in determining both the legal aspects of the social function of the Republic of Azerbaijan and the constitutional legal aspects of the state being an independent, creative and completed work containing brand new provisions. The dissertation work is formed on the basis of comparative analysis of the legislation of Azerbaijan and other states, also diverse points of views existing in the legal literature, including the experience of different countries.

Dissertation work contains introduction, three chapters, conclusion and bibliography.

The introduction of the work informs about the relevance of the topic and the structure of the work.

The first chapter of the research is called "General characteristics of the social function" and composed of three paragraphs. The first chapter deals with the scientific analysis of the role of the social function and the importance of the social function in ensuring the social rights, social state as the guarantee of the social rights, social policy as the implementation mechanism of the social function and other related issues.

The second chapter of the dissertation work is called "Legislative guarantee of the implementation of social rights in the Republic of Azerbaijan" and is comprised of two paragraphs. This chapter is focused on the wide range of issues relating the changes to the current legislation and its implementation experience, the provision of legal expertise of draft laws and etc.

The third chapter is called "Implementation of international standards in the social sphere in the Republic of Azerbaijan" and consists of two paragraphs. The issues analyzed in this chapter are the implementation of international obligations of universal level of Azerbaijan in order to ensure the social function of the republic, the constitutional legal basis of provision of the regional standards in social field, approximation of the legislation of the Republic of Azerbaijan with the social norms of Council of Europe and European Union, characteristics of the social cooperation of the CIS countries and etc.

Finally, the conclusion of the dissertation work attaches significant suggestions and results achieved as an outcome of the scientific research.

Çapa imzalanmışdır: Kağız formatı: 60x84 1/16.Sayı 100
«Bakı Universiteti» nəşriyyatı, Bakı, AZ 1148, Z.Xəlilov, 23.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**АЙТЕКИН НАЗИМ гызы ИБРАГИМОВА**

# КОНСТИТУЦИОННО-ПРАВОВЫЕ АСПЕКТЫ СОЦИАЛЬНОЙ ФУНКЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальност: 5607.01- «Конституционное право;
муниципальное право»**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени
доктора философии по праву**

**БАКУ-2015**